HAZ-CMP-POL-01

# Policy
## Anti-Bribery and Corruption

August 3 2016

## Content


**1. Introduction, scope of application and objective** ..... 3

**2. Policy Principles** ..... 3

*2.1 Staying away from Bribery and Corruption* ..... 3

*2.2 Small Payments to Expedite Routine Actions by Public Officials* ..... 4

*2.3 Payments in Situations of Imminent Health or Safety Threats* ..... 4

*2.4 Gifts, Hospitality and Entertainment* ..... 4

*2.5 Preferences, Favors or Undue Advantages* ..... 4

*2.6 Third Parties Interacting with Public Officials* ..... 4

**3. Examples of Business Interactions Requiring Due Care** ..... 5

*3.1 Lobbyists and Political Advisors* ..... 5

*3.2 Corporate Social Responsibility Projects, Sponsorship & Donations* ..... 5

*3.3 Political Donations and Contributions Involving or Connected With Public Officials* ..... 5

*3.4 Hiring Current or Former Public Official or his/her Relatives* ..... 6

*3.5 Participation in Organizations* ..... 6

**4. Seeking Advice, Review and Approval** ..... 6

**5. Record Keeping and Reporting** ..... 6

**6. Exceptions and Modifications** ..... 7

**7. How you will be trained on this topic** ..... 7

**Annexes** ........ 8
**Annex 1: Responsibilities** ........ 8
**Annex 2: Holcim Policies and Directives related to this policy** ........ 8

# 1. Introduction, scope of application and objective

We commit to support and enable the healthy growth of communities in which we operate. Abiding by the rule of law and setting an example on how to conduct ethical business is one way for us to put this commitment into action. Bribery undermines the operation of free markets, dilutes public trust in business and government and is deemed a crime in virtually all countries around the world.

Prosecutors aggressively investigate suspected violations, while convictions lead to large financial penalties and/or imprisonment. Obviously, the publicity and negative perceptions that attach to a company that engages in corrupt practices tarnishes its reputation.

At Holcim we believe in the following principles:

- All professionals – in business and in government – are expected to perform their duties objectively.

- We do not accept anything of value that might affect our objectivity in doing our jobs. Likewise, we do not bribe anyone for any reason.

- Every Employee should exercise good judgment to ensure that our interactions with all Third Parties – whether business partners or Public Officials - do not embarrass the Company but instead earn and maintain the public's trust and respect.

Bribery can take a variety of forms – offering or giving money or anything of value to a person that influences or affects our business can be a bribe. In fact, even common business practices or social activities, such as the provision of Gifts and Hospitality, can constitute bribes in some circumstances.

This Anti-Bribery and Corruption (ABC) Policy sets out the relevant principles for appropriate business conduct and related rules when interacting with Third Parties whether Public Officials or commercial parties. It defines who should be considered a Public Official, what activities are never permitted and the types of situations requiring due care, prior review and authorization.

This ABC Policy applies worldwide to all Directors and Employees of Holcim (as defined in Annex 2). For Employees who work with consultants, lobbyists, tax advisors or other Third Parties that interact with Public Officials, you must apply due diligence standards in accordance with the Third Party Due Diligence Directive.

# 2. Policy Principles

### *2.1 Staying away from Bribery and Corruption*

To be sure you stay away from bribery or corruption, never offer, promise or give anything of value in order to influence someone's professional objectivity for the benefit of yourself or Holcim. Equally, never request or accept anything of value that might influence your objectivity in doing your job.

Holcim may be held accountable not only for acts of bribery or corruption by its employees but also by those acting for or on behalf of Holcim. So when using Third Parties for legitimate reasons, it is crucial to ensure that such Third Parties apply the same standards as those that Holcim uses itself.

Good judgment is key. Always ask yourself, before offering or giving money or anything else of value to any person, whether or not what you are considering to do could be viewed as having a wrongful purpose. If the answer is yes, you must not proceed. Things of value that could be perceived as bribery or corruption can take many forms. The most common ones include actual or promised:

- Monetary payments, contributions or kickbacks
- Gifts, Entertainment and Hospitality (e.g. meals, lodging or transportation)
- Preferential treatment, favors or Undue Advantages
- Free education or training, and
- Discounted or free products or services.

Below is specific guidance you need to follow in order to avoid bribery and corruption when you interact directly or indirectly with Public Officials and business partners.

### *2.2 Small Payments to Expedite Routine Actions by Public Officials*

Never offer or make small, unofficial payments – commonly called “grease”, “speed” or “facilitation” payments - to secure or expedite a routine action by a Public Official. If a Public Official requests such payment, refuse even if there would be negative business consequences. If you face such situations, the Compliance Department can help. See Section 4 for the appropriate contact person.

Official expediting payments pursuant to a written regulation and for which you get an official receipt from the governmental authority are permissible.

### *2.3 Payments in Situations of Imminent Health or Safety Threats*

The company expects that you use good judgment and make best efforts to utilize appropriate resistance protocols if you are asked for an improper payment. If you feel, however, that there is an imminent risk to your health or safety you may make such payments. If a payment is made under these emergency circumstances, you must immediately report it to your supervisor, your Local Compliance Officer and properly document it in accordance with Section 5 below.

### *2.4 Gifts, Hospitality and Entertainment*

Providing or receiving reasonable Gifts, Hospitality and Entertainment is often an appropriate way to reflect esteem or gratitude or to build stronger business relationships. Nonetheless, Gifts, Hospitality and Entertainment require careful considerations to ensure that they are consistent with the law and our standards of conduct.

In particular, Gifts, Hospitality and Entertainment:

- must be modest, reasonable and infrequent insofar as any individual recipient is concerned, and
- are never permitted, regardless of the amount, if they are in cash or could be perceived as trying to influence the recipient’s professional objectivity, or if they are of bad taste, sexually oriented or could embarrass the recipient or Holcim.

Before offering, promising or receiving any Gifts, Hospitality or Entertainment you must ensure to comply with the Gift, Entertainment and Hospitality Directive as published and amended from time to time.

### *2.5 Preferences, Favors or Undue Advantages*

Never offer, promise, make, accept or ask for any preferences, favors or other Undue Advantages that could influence or appear to influence your or the recipient’s professional objectivity.

Examples of such advantages include: a grant of a free or advantageous loan, provision of educational support, hiring a Public Official’s or customer procurement officer’s relative as an Employee or intern or a promise of a future employment opportunity.

### *2.6 Third Parties Interacting with Public Officials*

The Company may be liable for acts of bribery or corruption by Third Parties whilst interacting with Public Officials for our account or on our behalf. Examples of such Third Parties can include government relations consultants, immigration consultants, lawyers, tax advisors, technical consultants, customs brokers, security services providers, logistics services providers, large equipment providers and resellers.

Before hiring or renewing the engagement of a Third Party that you expect to interact with Public Officials on our behalf you must:

- follow applicable procurement processes;
- conduct due diligence as set forth in the Third Party Due Diligence Directive;
- sign a written contract that clearly defines the scope of services, invoicing requirements,
- anti-bribery standards, authorization requirements for Gifts, Hospitality and Entertainment to Public

Officials on Holcim's behalf, and a clause allowing termination for non-compliance; and

- ensure payments to the Third Party are made only with proof of services rendered, in the same country where services are rendered and at a price that is considered market.

If you manage a relationship with a Third Party that interacts with Public Officials on the our behalf, you need to exercise due care to ensure that all relevant Third Party personnel understand Holcim requirements and how those requirements apply to their activities.

## 3. Examples of Business Interactions Requiring Due Care

There are other common business practices or social activities in which Employees or Third Parties may engage for our account or on our behalf that require particular care.

### *3.1 Lobbyists and Political Advisors*

Holcim regularly engages Public Officials in order to inform or shape policy debate and to assist Public Officials in their decision-making processes on issues of relevance to Holcim.
We are committed to dealing transparently and fairly in all of our lobbying activities and we comply with all laws and regulations related to such activities. The requirements set forth in section 2.5 apply.
Expected behavior for both Employees and Third Parties when engaging in lobbying or other public advocacy work on behalf of Holcim can be found in the Responsible Lobbying Directive.

### *3.2 Corporate Social Responsibility Projects, Sponsorship & Donations*

Support of Corporate Social Responsibility (CSR) projects and the use of Sponsorships and Donations (collectively "contributions"), are part of our contribution to the wellbeing of the communities and the environment in which we operate. Such contributions, however, can never be promised, offered or made to secure a business advantage or for any other improper purpose such as to bribe or self-enrich.
Before offering, promising or making any contribution to CSR projects, a Sponsorship or a Donation you must ensure the contribution complies with the CSR projects, Sponsorships and Donations Directive.

### *3.3 Political Donations and Contributions Involving or Connected With Public Officials*

In general, Holcim does not make donations to any political party, politician, elected official or candidate for office. Examples of prohibited political donations include:

- cash contributions
- free or discounted use of Holcim premises, equipment or other company resources; and

- payment of salary of a Holcim Employee working for a political party or candidate working during normal working hours (except if the Employee in question takes a legally permissible paid leave).

Other forms of contributions involving or connected with Public Officials or political parties are allowed only if permissible under written law and after prior review and approval as set forth in section 4.

### *3.4 Hiring Current or Former Public Official or his/her Relatives*

When employing or engaging a current or former Public Official or his/her Relatives as an Employee, board member or contractor/supplier, particular care needs to be exercised to prevent any actual or perceived corruption, conflict of interest or other wrongdoing in connection with such appointment.
In particular, any such relationship needs to be consistent with local written law. Furthermore, as with all hires, our hiring standards, qualification requirements, fair market remuneration principles and mandatory conditions, like individual compliance declarations and acceptance of Holcim Code of Business Conduct, must be applied and clearly documented.

### *3.5 Participation in Organizations*

Corrupt dealings by trade associations and other organizations of which Holcim is a member can harm our reputation and expose us to liability. For example, if Holcim is a financial contributor or an Employee(s) sit(s) on the board of an organization, corrupt dealings by the organization might implicate Holcim. Particular care should be paid to trade associations who may deal or lobby on behalf of its members with Public Officials.
Before committing Holcim as a member or to renew its membership in an organization that interacts with Public Officials, as part of its purpose, you must comply with due diligence requirements as set out in the Third Party Due Diligence Directive.

## 4. Seeking Advice, Review and Approval

Requests for advice, review and approval in relation to the ABC Policy must be submitted to your Local Compliance Officer. If no Local Compliance Officer, you should escalate your request to the Regional Compliance Officer and, if none in place, to the Head Group Compliance.
In addition to the specific review and approval requirements mentioned in prior sections, if you have any doubt whether or not a particular transaction may be regarded as a bribe, corruption or an improper advantage, you must seek prior advice and approval from your Local Compliance Officer or, if none, as per the escalation described in paragraph above.

## 5. Record Keeping and Reporting

Any payment, Gift, Hospitality or Entertainment in relation to an interaction with a Public Official, whether made by Holcim or a Third Party interacting for our account or on our behalf, must be identifiable and properly recorded and documented.
If anyone has asked you, directly or indirectly, to make a payment or confer an advantage to anyone in violation of this Policy, it is your duty to immediately report this to your Local Compliance Officer. If no Local Compliance Officer, you should report this event to the Regional Compliance Officer and, if none in place, to the Head Group Compliance. Alternatively you may report the same via the Integrity Line.

## 6. Exceptions and Modifications

In the unlikely situation where an exception or modification to the principles set out in this Policy would be required, the request for exception must be made in good faith and submitted in writing (incl. email) to the Head Group Compliance.

## 7. How you will be trained on this topic

ABC principles are specifically covered in the Holcim Code of Business Conduct, which is applicable to all Employees. Certain Employees identified as Medium or High Exposed ABC Employees have additional training requirements (e-learning and face-to-face trainings) as approved by Group EXCOM from time to time. Training must be provided by a member of the Compliance Function or an Employee that has received the appropriate training as documented by a train-the-trainer certification on this topic.

*********************************************

The ABC Policy was approved by the Group Executive Committee on May 30, 2016 and the Finance and Audit Committee of the Board of Directors on August 3, 2016 and will come into force on August 3, 2016.

<table>
<tr><th>Date of Approval</th><th>Responsible Group Executive Member</th><th></th></tr>
<tr><td>Original dated<br>August 3, 2016</td><td colspan="2" rowspan="2">Revision Dates:</td></tr>
<tr><td>Version dated:<br>August 3, 2016</td></tr>
<tr><td colspan="3">Responsible Group Executive Member: Eric Olsen, Group CEO<br>Responsible Manager: Xavier Dedullen, Head Legal & Compliance Officer / Laurie Waddy, Head Group Compliance</td></tr>
</table>

# Annexes

## Annex 1: Responsibilities

All Employees at Corporate and Country level must adhere to the principles set out in this Policy and the related Directives at all times.

## Annex 2: Holcim Policies and Directives related to this policy

| Link to Policy | Policy/Directive | Definition / Description | Responsibility | Reference |
|---|---|---|---|---|
| Policy Framework | Code of Business Conduct | Comprehensive guidance document on workplace-related conduct requirements | Compliance | CoBC |
| Policy Framework | Compliance Policy | Mandates the compliance program and outlines its scope and general principles. | Compliance | Compliance Policy |
| Policy Framework | Conflict of Interest Directive | Relevant principles and guidance for avoiding and dealing with conflicts of interest | Compliance | Conflict of Interest Directive |
| Policy Framework | CSR Projects, Sponsorships and Donations Directive (once adopted) | Determine the framework and associated requirements for contributing to the wellbeing of the communities in which Holcim operates. | Sustainable Development | CSR Projects, Sponsorships and Donations Directive |
| Policy Framework | Gifts, Entertainment and Hospitality Directive (once adopted) | Define the specific requirements related to the provision or acceptance of Gifts, Hospitality and Entertainment by Holcim Employees | Compliance | Gifts, Entertainment and Hospitality Directive |
| Policy Framework | Third Party Due Diligence Directive (once adopted) | Define due diligence requirements in relation to Third Parties interacting on behalf of Holcim with Public Officials | Compliance | Third Party Due Diligence Directive |
| Policy Framework | Responsible Lobbying Directive | Sets forth the guiding principles and rules of conduct for lobbying activities | Sustainable Development | Responsible Lobbying Directive |

## Annex 3: Definitions and Abbreviations

| | |
|---|---|
| *ABC* | Anti-Bribery and Corruption |
| *CSR Projects* | Long term projects aiming to improve people's living condition in a sustainable way and focusing on the needs of the communities where Holcim operates. These projects are coordinated andimplemented in collaboration between Holcim and an institution or organization and Holcim does not receive or expect to receive a business or financial advantage in return. |
| *Director* | Member of the Holcim board of directors and any Group Company board of directors (including executive and non-executivedirectors) or, in Group Companies applying a two-tier board system,any member of the supervisory board. |
| *Donations* | Donations are voluntary one off contributions to an institution or organization where Holcim does not receive or expects toreceive anything in return. Donations can be monetary or in kind support, such as the supply of material. |
| *Employee* | All officers and Employees of Holcim, including interns, temporary workers, contract workers and anyone over whom Holcim could reasonably be expected to exert control in theway the person completes his or her work. |
| *Entertainment* | Refers to the provisions to a Third Party of an opportunity to participate to an event or an activity such as a show, a performance or a game.<br>To be considered as Entertainment, the provider must be present during the event or activity otherwise this is a Gift and must be treated as such. |
| *Gift* | See definition of Hospitality and Entertainment |
| *Government Instrumentality* | Any government-controlled entity including universities, hospitals and commercial enterprises. An entity is government-controlled if a government (a) owns or controls 50% or more of the entity's shares or (b) can otherwise direct the management, policies or affairs of that entity. |
| *High Exposed ABC Employees* | All EXCO members and all Employees in N-1 and N-2 positions (where N is the CEO). Heads and direct reports of the following functions: Finance, Procurement, CAPEX, Trading, Regulatory/Quality, Government Relations, Geocycle (AFR), IT, Strategy/ M&A, Communications, Commercial/ Sales, Growth & Innovation/Marketing, Performance & Cost, HR, Sustainable Development, Environment and plant management. All Legal/Compliance, Internal Audit and Internal Control Employees. |

| | |
|---|---|
| *Hospitality and Entertainment* | Refers to the provision to a Third Party of travel, transportation, lodging or entertainment it also includes and/or a meals when offered as part of, or alongside, an entertainment, or other similar forms of treatment towards Third Parties.<br><br>To be considered as Hospitality or Entertainment, the provider must be present otherwise this is a gift and must be treated as such. |
| *Holcim* | Holcim Ltd and all of its consolidated affiliates from time to time. |
| *Lobbyists and Political Advisors* | Individual or company having direct or indirect communications with Public Officials to influence policies, laws, programs, standards or positions. May conduct or policy related actions or other official acts or advise Holcim on such topics. |
| *Local Compliance Officer* | Formally appointed Compliance Officer responsible for the defined geography. |
| *Medium Exposed ABC Employees* | All Employees in addition to High Exposed ABC Employees who have the potential to interact with public officials or participate in business negotiations (with commercial discretion) with private business partners on behalf of the Group Company. |
| *Public International Organization* | An organization whose members are countries, government or other Public International Organizations. |
| *Public Officials* | Any officer, Employee or person acting on behalf of (a) a government, its department, agency or Government Instrumentality |
| | or (b) a Public International Organization. The term also includes political party officials and candidates for political office as well as family members of any of the above. |
| *Relatives* | Refers to (a) immediate family members i.e. spouse, partner, girlfriend/boyfriend, parents and grandparents, children and stepchildren, siblings, mother-, father-, brothers- and sisters-in-law, and (b) other close relationships such as close friends or partners. |

| | |
|---|---|
| *Sponsorships* | Involve a monetary or in kind contribution to a charity or not-for- profit organization in return for the on-going rights to associate with an activity, item, person, organization or property or in exchange for building reputation. |
| *Undue Advantage* | Refers to something to which the company or person concerned is not clearly or legally entitled, such as an operating permit for a factory which fails to meet statutory requirements. |
| | or (b) a Public International Organization. The term also includes political party officials and candidates for political office as well as family members of any of the above. |
| *Relatives* | Refers to (a) immediate family members i.e. spouse, partner, girlfriend/boyfriend, parents and grandparents, children and stepchildren, siblings, mother-, father-, brothers- and sisters-in-law, and (b) other close relationships such as close friends or partners. |
| *Sponsorships* | Involve a monetary or in kind contribution to a charity or not-for- profit organization in return for the on-going rights to associate with an activity, item, person, organization or property or in exchange for building reputation. |
| *Undue Advantage* | Refers to something to which the company or person concerned is not clearly or legally entitled, such as an operating permit for a factory which fails to meet statutory requirements. |

# Siyasət

## Rüşvətxorluq və korrupsiya ilə mübarizə

3 avqust 2016

LafargeHolcim

## Mündəricat

**1. Giriş, tətbiq dairəsi və məqsəd** .......... 1

**2. Siyasətin prinsipləri** .......... 2

*2.1 Rüşvət və korrupsiyadan uzaq durmaq* .......... 2

*2.2 Dövlət rəsmilərinin müntəzəm olaraq yerinə yetirdikləri fəaliyyətlərin sürətləndirilməsi üçün kiçik ödənişlər* .......... 3

*2.3 Sağlamlıq və ya təhlükəsizliyə qarşı qaçılmaz təhlükə vəziyyətlərində ödənişlər* .......... 3

*2.4 Hədiyyələr, qonaqpərvərlik və əyləncə* .......... 3

*2.5 İmtiyazlar, yaxşılıqlar və ya qeyri-qanuni üstünlüklər* .......... 3

*2.6 Dövlət rəsmiləri ilə ünsiyyətdə olan üçüncü tərəflər* .......... 3

**3. Lazımi ehtiyatlılığın nümayiş etdirilməsini tələb edən biznes münasibətlərinə nümunə** .......... 4

*3.1 Lobbiçilər və siyasi məsləhətçilər* .......... 4

*3.2 Şirkətin sosial məsuliyyət layihələri, sponsorluqlar və ianələr* .......... 4

*3.3 Dövlət rəsmiləri ilə bağlılığı olan siyasi ianələr və töhfələr* .......... 4

*3.4 Hazırkı və ya sabiq dövlət rəsmisinin və ya onun qohumlarının işə qəbulu* .......... 5

*3.5 Təşkilatlarda iştirak* .......... 5

**4. Məsləhət, qiymətləndirmə və təsdiq üçün müraciət** .......... 5

**5. Uçotun aparılması və hesabatların verilməsi** .......... 5

**6. İstisnalar və düzəlişlər** .......... 5

**7. Bu mövzuda təlimin keçilmə qaydası** .......... 6

**Əlavələr** .......... 6

**Əlavə 1: Cavabdehliklər** .......... 6

**Əlavə 2: LafargeHolcim-in bu təlimatla bağlılığı olan siyasət və təlimatları** .......... 6

**Əlavə 3: Tərif və qısaltmalar** .......... 7

# 1. Giriş, tətbiq dairəsi və məqsəd

Biz fəaliyyət göstərdiyimiz icmaların sağlam inkişafını dəstəkləmək və bunun üçün əlverişli şərait yaratmaq məqsədinə qətiyyətlə bağlıyıq. Qanunun aliliyini rəhbər tutmaq, etik işgüzar fəaliyyətin necə həyata keçirilməli olduğuna dair nümunə təşkil etmək bizim üçün bu məqsədə nail olmağın yollarından biridir. Rüşvət azad bazarların fəaliyyətini sarsıdır, cəmiyyətin biznesə və hökumətə etimadını zəiflədir və dünyanın faktiki olaraq bütün ölkələrində cinayət hesab edilir.

Prokurorlar pozuntu ilə bağlı şübhələri ciddi-cəhdlə araşdırırlar, ittiham hökmünün çıxarılması isə böyük maliyyə cərimələri və/və ya azadlıqdan məhrum edilmə ilə nəticələnir. Aydındır ki, korrupsiya hərəkətlərinə yol verən şirkətlə əlaqələndirilən mənfi təsəvvürlər və məşhurluq onun nüfuzunu ləkələyir.

LafargeHolcim-də biz aşağıdakı prinsiplərə inanırıq:

- İstər biznes sahəsi, istər dövlət sektorunda çalışan peşəkarlardan vəzifələrini obyektivliklə yerinə yetirmələri gözlənilir.
- Biz işimizi obyektiv qaydada yerinə yetirməyimizə təsir edə biləcək dəyərli heç nəyi qəbul etmirik. Eyni qaydada hər hansı səbəbdən heç kimə rüşvət vermirik.
- Hər bir əməkdaş  işgüzar tərəfdaş və ya dövlət rəsmisi olmasından asılı olmayaraq, bütün üçüncü tərəflərlə qarşılıqlı fəaliyyətlərimizin Şirkəti utandırmamasını, əksinə ictimaiyyətin etimad və hörmətinin qorunmasını təmin etmək üçün düzgün mülahizə yürütməlidir.

Rüşvətin müxtəlif formaları ola bilər - işgüzar fəaliyyətimizə təsir edən hər hansı şəxsə pul və ya başqa dəyərli nemətin təklif olunması və ya verilməsi rüşvət ola bilər. Faktiki olaraq, hətta hədiyyələrin verilməsi və qonaqpərvərlik kimi yayılmış biznes təcrübələri və ya sosial fəaliyyətlər də bəzi hallarda rüşvət ola bilər.

Rüşvətxorluq və korrupsiya ilə mübarizəyə (**RKM**) dair bu  siyasət müvafiq etik davranış prinsiplərini, eləcə də dövlət rəsmisi və ya kommersiya tərəfdaşı olmalarından asılı olmayaraq, üçüncü tərəflərlə qarşılıqlı fəaliyyət çərçivəsində tətbiq olunan digər əlaqədar qaydaları müəyyən edir. Burada kimin dövlət rəsmisi hesab edilməli olduğu, hansı fəaliyyətlərin hər zaman yolverilməz olduğu, xüsusi ehtiyatlılıq, əvvəlcədən qiymətləndirilmə və icazə tələb edən vəziyyətlərin növləri müəyyənləşdirilir.

RKM siyasəti bütün dünyada LafargeHolcim-in bütün direktor və əməkdaşlarına şamil edilir (2-ci Əlavədə göstərilən tərifə müvafiq olaraq). Dövlət rəsmiləri ilə ünsiyyətdə olan məsləhətçilər,  lobbiçilər, vergi məsələləri üzrə məsləhətçilər və ya başqa üçüncü tərəflərlə işləyən əməkdaşlar Üçüncü tərəflərin etibarlılığının yoxlanması təlimatlarına uyğun olaraq, kompleks yoxlama standartlarını tətbiq etməlidirlər.

# 2. Siyasətin prinsipləri

## 2.1 Rüşvət və korrupsiyadan uzaq durmaq

Rüşvət və korrupsiyadan uzaq durduğunuzdan əmin olmaq üçün heç vaxt kiminsə peşəkar qərəzsizliyinə özünüzün və ya LafargeHolcim-in mənafeyi yönündə təsir etmək məqsədilə dəyərli heç nə təklif etməyin, vəd etməyin və ya verməyin. Eyni qaydada heç vaxt kimdənsə işinizi obyektiv şəkildə yerinə yetirməyinizə təsir edə biləcək dəyərli bir şey tələb etməyin və ya qəbul etməyin.

LafargeHolcim yalnız əməkdaşlarının deyil, həm də onun adından çıxış edən şəxslərin rüşvətxorluq və ya korrupsiya hərəkətlərinə görə məsuliyyətə cəlb oluna bilər. Buna görə də üçüncü tərəflərdən qanuni məqsədlər üçün istifadə edən zaman bu üçüncü tərəflərin LafargeHolcim ilə eyni standartları tətbiq etdiyinin dəqiqləşdirilməsi həlledici əhəmiyyət kəsb edir.

Düzgün mülahizə yürütmək əsasdır. Hər hansı şəxsə pul vəsaiti və ya dəyərli bir şey təklif etməzdən və ya verməzdən əvvəl mütləq özünüzdən soruşun: etməyi düşündüyünüz hərəkətin arxasında qeyri-qanuni bir məqsədin olduğu düşünülə bilərmi? Cavab "bəli"dirsə, bu davranışdan çəkinməlisiniz. Rüşvət və ya korrupsiya hesab oluna biləcək dəyərli şeylərin müxtəlif formaları ola bilər. Ən geniş yayılan formalara faktiki olaraq təqdim edilməsindən və ya vəd olunmasından asılı olmayaraq aşağıdakılar daxildir:

- pul ödənişləri, yardımlar və ya “otkat”

- imtiyazlı rəftar, yaxşılıqlar və ya qeyri-qanuni üstünlüklər,
- ödənişsiz təhsil və ya təlim,
- güzəştli qiymətlə və ya ödənişsiz məhsul və ya xidmətlər.

Dövlət rəsmiləri və biznes tərəfdaşları ilə birbaşa və ya dolayı qarşılıqlı fəaliyyət zamanı rüşvət və korrupsiyadan yayınmaq üçün izləməli olduğunuz konkret təlimatlar aşağıda göstərilir.

### 2.2 Dövlət rəsmilərinin müntəzəm olaraq yerinə yetirdikləri fəaliyyətlərin sürətləndirilməsi üçün kiçik ödənişlər

Heç vaxt dövlət rəsmisi tərəfindən yerinə yetirilən müntəzəm fəaliyyəti zəmanət altına almaq və ya sürətləndirmək məqsədilə "sürətləndirmə" və ya "sürət" ödənişi kimi tanınan kiçik qeyri-rəsmi ödənişlər təklif etməyin. Dövlət rəsmisi belə ödəniş tələb edərsə, biznes üçün nəticələri mənfi olsa belə, imtina edin. Belə vəziyyətlərlə üzləşdikdə, Uyğunluğa Nəzarət (Komplayens) Şöbəsi sizə kömək edə bilər. Kiminlə əlaqə saxlamalı olduğunuzu öyrənmək üçün 4-cü bölməyə baxın.

Qanun çərçivəsində və səlahiyyətli dövlət orqanı tərəfindən rəsmi qəbzin verilməsi ilə fəaliyyətin sürətləndirilməsi üçün təmin edilən rəsmi ödənişlər məqbul hesab edilir.

### 2.3 Sağlamlıq və ya təhlükəsizliyə qarşı qaçılmaz təhlükə vəziyyətlərində ödənişlər

Şirkət sizdən qeyri-qanuni ödəniş xahişi ilə qarşılaşdığınız zaman düzgün mülahizə yürütməyinizi və müvafiq müqavimət protokollarından istifadə üçün əlinizdən gələni etməyinizi gözləyir. Lakin sağlamlıq və ya təhülkəsizliyinizə qarşı təhlükənin olduğunu hiss etdiyiniz halda belə ödənişləri edə bilərsiniz. Belə fövqəladə şərtlər daxilində ödəniş edilibsə, dərhal supervayzerinizə, uyğunluğa nəzarət üzrə yerli məsul şəxsə məlumat verməli və bunu aşağıdakı 5-ci bölmədə göstərilən qaydada sənədləşdirməlisiniz.

### 2.4 Hədiyyələr, qonaqpərvərlik və əyləncə

Məntiqi baxımdan məqbul hədiyyələrin, qonaqpərvərlik və əyləncənin təmin və qəbul olunması ehtiram və ya minnətdarlığın ifadə edilməsi, yaxud daha güclü münasibətlərin qurulması üçün müvafiq üsul hesab edilir. Bununla belə, hədiyyələr, qonaqpərvərlik və əyləncə qanuna və bizim etik davranış standartlarımıza uyğunluğu təmin etmək məqsədilə ehtiyatla götür-qoy edilməlidir.

Hədiyyələr, qonaqpərvərlik və əyləncə xüsusilə:

- sadə olmalı, bahalı olmamalı, hər hansı fərdə tez-tez təqdim olunmamalıdır,
- nağd pul formasında olduqda, qəbul edən tərəfin peşəsini qərəzsiz yerinə yetirməsinə təsir etmək cəhdi kimi başa düşülə biləcəyi halda və ya aşağı zövqlü, seksual yönümlü olduqda, yaxud qəbul edən şəxs, yaxud LafargeHolcim-i utandıra biləcəyi təqdirdə qətiyyən qəbul edilməz hesab olunur.

Hədiyyə, qonaqpərvərlik və ya əyləncəni təklif, vəd və ya qəbul etməzdən əvvəl Hədiyyə, qonaqpərvərlik və ya əyləncəyə dair təlimatların son redaktə və nəşrinə uyğun hərəkət etdiyinizdən əmin olmalısınız.

### 2.5 İmtiyazlar, yaxşılıqlar və ya qeyri-qanuni üstünlüklər

Heç vaxt sizin və ya qəbul edən tərəfin peşəsini qərəzsiz şəkildə yerinə yetirməsinə təsir edə biləcək və ya bu cür təəssürat yarada biləcək hər hansı imtiyaz, yaxşılıq və ya başqa qeyri-qanuni üstünlüklər təklif, vəd, qəbul və ya tələb etməyin. Belə üstünlüklərə nümunə ola bilər: ödənişsiz və ya imtiyazlı kreditin verilməsi, təhsil dəstəyinin təmin edilməsi, dövlət rəsmisinin və ya müştərinin satınalma əməkdaşının qohumunun əməkdaş və ya təcrübəçi kimi işə qəbul edilməsi və ya gələcəkdə iş imkanının vəd edilməsi.

### 2.6 Dövlət rəsmiləri ilə ünsiyyətdə olan üçüncü tərəflər

Şirkət bizim adımızdan dövlət rəsmiləri ilə ünsiyyətdə olan üçüncü tərəflərin rüşvətxorluq və ya korrupsiya hərəkətlərinə görə cavabdeh ola bilər. Belə üçüncü tərəflərə misal olaraq aşağıdakılar göstərilə bilər: dövlət orqanları ilə iş üzrə məsləhətçilər, immiqrasiya məsələləri üzrə məsləhətçilər, hüquqşünaslar, vergi məsələləri üzrə məsləhətçilər, texniki

konsultantlar, gömrük brokerləri, mühafizə xidməti təminatçıları, logistika xidməti təminatçıları, iri avadanlıq təchizatçıları və ticari vasitəçilər.

Dövlət rəsmiləri ilə bizim adımızdan qarşılıqlı ünsiyyət quracağı nəzərdə tutulan üçüncü tərəflərin işə qəbulundan və ya müqavilələrinin yenilənməsindən əvvəl:

- müvafiq satınalma proseslərinə əməl etməlisiniz;
- lazımi yoxlamanı Üçüncü tərəflərin etibarlılığının yoxlanmasına dair təlimatda müəyyən edilən qaydada aparmalısınız;
- xidmətlərin həcmini, hesab-faktura tələblərini, rüşvətlə mübarizə standartlarını, LafargeHolcim adından dövlət rəsmiləri üçün hədiyyə, qonaqpərvərlik və əyləncə ilə bağlı icazə tələblərini, eləcə də bunlara əməl edilməməsi halında müqavilənin ləğv edilməsinə imkan verən bəndi dəqiq müəyyən edən yazılı müqavilə imzalamalısınız;
- Üçüncü tərəflərə ödənişlərin - yalnız xidmətlərin yerinə yetirildiyi ölkədə xidmətlərin tamamlandığına dair dəlil əsasında - və bazar qiymətinə uyğun həyata keçirilməsini təmin etməlisiniz.

Adımızdan dövlət rəsmiləri ilə qarşılıqlı fəaliyyət göstərən üçüncü tərəflə münasibətləri idarə edirsinizsə, üçüncü tərəfin bütün müvafiq əməkdaşlarının LafargeHolcim-in tələblərini və bu tələbləri fəaliyyətlərində necə tətbiq etməli olduqlarını başa düşməsini təmin etmək məqsədilə lazımi ehtiyatlılığı nümayiş etdirməlisiniz.

# 3. Lazımi ehtiyatlılığın nümayiş etdirilməsini tələb edən biznes münasibətlərinə nümunə

Əməkdaşların və ya üçüncü tərəflərin adımızdan yerinə yetirdiyi və xüsusi ehtiyatlılıq tələb edən başqa geniş yayılmış biznes təcrübələri və ya sosial fəaliyyətlər də mövcuddur.

## 3.1 Lobbiçilər və siyasi məsləhətçilər

LafargeHolcim özü üçün əhəmiyyət kəsb edən məsələlərdə qərar qəbulu proseslərində yardım, siyasət proqramları ilə bağlı debatların formalaşdırılması və ya bu debatları üçün məlumatların təqdim olunması məqsədilə müntəzəm olaraq dövlət rəsmilərini fəaliyyətə cəlb edir.

Bütün lobbiçilik fəaliyyətlərimizdə şəffaflıq və ədaləti qorumaq məqsədinə qətiyyətlə bağlıyıq və belə fəaliyyətlərlə bağlı bütün qanun və qaydalara əməl edirik. 2.5-ci bölmədə göstərilən tələblər tətbiq edilir.

Həm əməkdaşlardan, həm də üçüncü tərəflərdən LafargeHolcim adından lobbiçilik və ya başqa ictimai vəkillik fəaliyyətləri ilə məşğul olan zaman gözlənilən davranışla Məsuliyyətli lobbiçilik fəaliyyəti haqqında təlimatda tanış olmaq mümkündür.

## 3.2 Şirkətin sosial məsuliyyət layihələri, sponsorluqlar və ianələr

Korporativ Sosial Məsuliyyət (KSM) layihələrinə dəstək, sponsorluq və ianələrdən istifadə (birlikdə "töhfələr") fəaliyyət göstərdiyimiz mühit və icmaların rifahına töhfəmizin bir hissəsidir. Lakin belə yardımlar heç vaxt biznes üstünlüyü və ya rüşvət, yaxud özünü zənginləşdirmə kimi hər hansı başqa qanuna zidd məqsəd üçün vəd, təklif və ya təmin edilə bilməz.

KSM layihələrinə hər hansı töhfə, sponsorluq və ya ianə təmin etməzdən və ya bunları təklif, yaxud vəd etməzdən əvvəl töhfənin KSM layihələri, sponsorluq və ianələr haqqında təlimatlara uyğun olduğundan əmin olmalısınız.

## 3.3 Dövlət rəsmiləri ilə bağlılığı olan siyasi ianələr və töhfələr

Ümumiyyətlə, LafargeHolcim hər hansı siyasi partiya, siyasətçi, seçilmiş vəzifəli şəxs və ya yüksək vəzifəyə namizəd olanlara ianə etmir. Qadağan edilmiş siyasi ianələrə aşağıdakılar misal ola bilər:

- nağd vəsaitlə ianələr
- LafargeHolcim-ə məxsus ərazi, avadanlıq və başqa şirkət resurslarından ödənişsiz və ya güzəştli qiymətlər istifadə;
- normal iş saatları ərzində siyasi partiya və ya namizəd üçün çalışan LafargeHolcim əməkdaşına əməkhaqqı ödənişi (sözügedən əməkdaşın qanun çərçivəsində icazə verilən ödənişli məzuniyyətdən istifadə etdiyi hallar istisna olmaqla).

Dövlət rəsmiləri və ya siyasi partiyalarla bağlılığı olan başqa töhfə formalarına yalnız qanun çərçivəsində icazə verildikdə və 4-cü bölmədə müəyyən edilən qaydada həyata keçirilən əvvəlcədən qiymətləndirmə və təsdiqdən sonra yol verilə bilər.

### 3.4 Hazırkı və ya sabiq dövlət rəsmisinin və ya onun qohumlarının işə qəbulu

Hazırkı və ya sabiq dövlət rəsmisi və ya onun qohumları əməkdaş, idarə heyətinin üzvü və ya podratçı/təchizatçı olaraq işə qəbul edilən, yaxud fəaliyyətə cəlb olunan zaman hər hansı faktiki korrupsiyanın və ya belə təəssüratın yaranmasının, maraqların toqquşmasının və bu cür təyinatla bağlı başqa qanuna zidd davranışın qarşısının alınması məqsədilə xüsusi ehtiyatlılıq nümayiş etdirilməlidir.

Belə münasibətlər xüsusən yerli qanunvericiliyə uyğun olmalıdır. Bundan əlavə hər zaman işə qəbula tətbiq olunan standartlar, ixtisaslaşma tələbləri, ədalətli əməkhaqqı ödənişi prinsipləri, eləcə də uyğunluq haqqında fərdi bəyanat kimi icbari şərtlər tətbiq edilməli, LafargeHolcim etik davranış kodeksi qəbul olunmalı və bütün bunlar dəqiqliklə sənədləşdirilməlidir.

### 3.5 Təşkilatlarda iştirak

LafargeHolcim-in üzvü olduğu ticarət assosiasiyalarının və başqa təşkilatların korrupsiya sövdələşmələri nüfuzumuzu zədələyə və bizi hüquqi məsuliyyətə məruz qoya bilər. Məsələn, LafargeHolcim təşkilatı maliyyə töhfəsi ilə təmin edirsə və ya Əməkdaş(lar)ımız təşkilatın idarə heyətində təmsil olunursa, həmin təşkilatın korrupsiya sövdələşmələri LafargeHolcim-i töhmət altında qoya bilər. Ələlxüsus üzvlərinin adından dövlət rəsmiləri ilə iş görə və ya lobbi fəaliyyəti ilə məşğul ola biləcək ticarət assosiasiyalarına diqqət yetirilməlidir.

LafargeHolcim-in məqsədlərindən biri dövlət rəsmiləri ilə qarşılıqlı fəaliyyət olan təşkilatlara üzv olmasından və ya üzvlüyünü yeniləməsindən əvvəl Üçüncü tərəflərin etibarlılığının yoxlanması təlimatlarının tələblərini yerinə yetirməlisiniz.

## 4. Məsləhət, qiymətləndirmə və təsdiq üçün müraciət

KRM Siyasəti ilə əlaqədar məsələlərdə məsləhət, qiymətləndirmə və təsdiq üçün uyğunluğa nəzarət (komplayens) üzrə yerli məsul şəxsə müraciət edilməlidir. Uyğunluğa nəzarət (komplayens) üzrə yerli məsul şəxs yoxdursa, Region üzrə uyğunluğa məsul şəxsə, onlar yerində olmadıqda isə Qrupun uyğunluğa nəzarət üzrə məsul şəxsinə müraciət etməlisiniz.

Yuxarıda qeyd edilən xüsusi qiymətləndirmə və təsdiq edilmə tələblərindən əlavə, müəyyən bir əməliyyatın rüşvət, korrupsiya, yaxud hüquqa zidd üstünlük hesab edilə biləcəyi haqqında hər hansı şübhəniz varsa, uyğunluğa nəzarət (komplayens) üzrə yerli məsul şəxsə məsləhət və təsdiq üçün müraciət etməli, yerli məsul şəxs yoxdursa, məsələni əvvəlki bənddə göstərilən qaydada müvafiq şəxsin diqqətinə çatdırmalısınız.

## 5. Uçotun aparılması və hesabatların verilməsi

Dövlət rəsmisi ilə qarşılıqlı fəaliyyət çərçivəsində hər hansı ödəniş, hədiyyə və ya əyləncə LafargeHolcim və ya onun adından fəaliyyət göstərən üçüncü tərəfin təmin etməsindən asılı olmayaraq eyniləşdirilə bilməli, müvafiq qaydada uçota alınmalı və sənədləşdirilməlidir.

Birbaşa və ya dolayı olaraq, bu Siyasətin əksinə kimin üçünsə ödənişin edilməsi və ya üstünlüyün təmin edilməsi xahişi ilə üzləşdikdə, uyğunluğa nəzarət (komplayens) üzrə yerli məsul şəxsə bu barədə dərhal məlumat vermək borcunuzdur. Uyğunluğa nəzarət (komplayens) üzrə yerli məsul şəxs yoxdursa, bu hadisə barədə Region üzrə uyğunluğa məsul şəxsə, onlar yerində olmadıqda isə, Qrupun uyğunluğa nəzarət üzrə məsul şəxsinə məlumat verməlisiniz. Alternativ olaraq, etik məsələlər üzrə qaynar xəttə məlumat verə bilərsiniz.

## 6. İstisnalar və düzəlişlər

Bu Siyasətdə göstərilən prinsiplərə istisna və ya dəyişiklik tələb edilərsə, bu istisna və dəyişiklik tələbi vicdanlı (yaxşı niyyətli) olmalı və yazılı şəkildə (e-poçt daxil olmaqla) Qrupun Baş Uyğunluq şöbəsinə təqdim edilməlidir.

## 7. Bu mövzuda təlimin keçilmə qaydası

Bütün əməkdaşlara şamil olunan LafargeHolcim Etik Davranış Kodeksində RKM prinsiplərin' xüsusi yer verilir. RMK-ya orta və ya yüksək dərəcədə məruz qaldıqları müəyyən edilmiş əməkdaşların Qrupun İcraiyyə Komitəsinin vaxtaşırı təsdiq etdiyi müvafiq qaydada əlavə təlim keçmələri tələb

| | |
|---|---|
| *İlk nəşr:*<br>3 avqust 2016 | *Redaktə tarixləri:* |
| *Cari variantın qəbul edilmə tarixi:*<br>3 avqust 2016 | |
| *Qrupun İcraiyyə Komitəsinin Məsul Üzvü:* Eric Olsen, Qroup-un Baş icraçı direktoru<br>*Məsul şəxs:* Xavyer Dedullen, Hüquq məsələləri və uyğunluğa nəzarət üzrə rəhbər şəxs / Lauri Vaddy Franke, Qrupun uyğunluğa nəzarət üzrə məsul şəxsi | |

## Əlavələr

### Əlavə 1: Cavabdehliklər

Şirkət və ölkə səviyyəsində bütün əməkdaşlar bu Siyasətdə müəyyən edilən prinsiplərə əməl etməlidirlər.

### Əlavə 3: LafargeHolcim-in bu siyasətlə bağlılığı olan siyasət və təlimatları

| **Siyasətə keçid** | **Siyasət/Təlimat** | **Tərif / Təsvir** | **Cavabdehlik** | **İstinad** |
|---|---|---|---|---|
| Siyasət Mexanizmi | Etik Davranış Kodeksi | İş yeri ilə əlaqədar davranış tələbləri haqqında əhatəli rəhbər sənəd | Uyğunluğa nəzarət | EDK |
| Siyasət Mexanizmi | Uyğunluğa nəzarət Siyasət | Uyğunluğa nəzarət proqramını müəyyən edir, onun tətbiq dairəsini və ümumi prinsiplərini təsvir edir. | Uyğunluğa nəzarət | Uyğunluğa nəzarət siyasəti |
| Siyasət Mexanizmi | Maraqların toqquşmasına dair təlimat | Maraqların toqquşması halında davranış və belə hallardan yayınma ilə əlaqədar müvafiq prinsiplər və rəhbərlik | Uyğunluğa nəzarət | Maraqların toqquşmasına dair təlimat |

| Siyasətə keçid | Siyasət/Təlimat | Tərif / Təsvir | Cavabdehlik | İstinad |
|---|---|---|---|---|
| Siyasət Mexanizmi | KSM layihələri, sponsorluq və ianələr barədə təlimat (qəbul edildikdən sonra) | LafargeHolcim-in fəaliyyət göstərdiyi icmaların rifahına töhfə verməsi ilə əlaqədar mexanizm və tələbləri müəyyən edir. | Davamlı İnkişaf | KSM layihələri, maliyyə dəstəyi və ianələr haqda təlimat |
| Siyasət Mexanizmi | Hədiyyə, əyləncə və qonaqpərvərlik barədə təlimat (qəbul edildikdən sonra) | LafargeHolcim əməkdaşları tərəfindən hədiyyə, qonaqpərvərlik və əyləncənin təmin və ya qəbul edilməsi ilə əlaqədar konkret tələbləri müəyyən edir | Uyğunluğa nəzarət | Hədiyyə, əyləncə və qonaqpərvərlik barədə təlimat |
| Siyasət Mexanizmi | Üçüncü tərəflərin etibarlılığının yoxlanması Təlimatı (qəbul olunduqdan sonra) | Dövlət rəsmiləri ilə LafargeHolcim adından qarşılıqlı fəaliyyət göstərən üçüncü tərəflərə münasibətdə etibarlılığın yoxlanması tələblərini müəyyən edir. | Uyğunluğa nəzarət | Üçüncü tərəflərin etibarlılığının yoxlanması təlimatı |
| Siyasət Mexanizmi | Məsuliyyətli Lobbiçilik fəaliyyəti təlimatı | Lobbiçilik fəaliyyəti üçün rəhbər prinsip və qaydaları müəyyən edir | Davamlı İnkişaf | Məsuliyyətli Lobbiçilik fəaliyyəti təlimatı |

## Əlavə 2: Tərif və qısaltmalar

| | |
|---|---|
| *RKM* | Rüşvətxorluq və korrupsiya ilə mübarizə |
| *KSM layihələri* | İnsanların yaşayış şəraitini dayanıqlı şəkildə təkmilləşdirmək məqsədi daşıyan, LafargeHolcim-in fəaliyyət göstərdiyi icmaların ehtiyaclarının ödənməsinin diqqət mərkəzində saxlandığı uzunmüddətli layihələr. Bu layihələr LafargeHolcim və başqa bir institut və ya təşkilat arasında əməkdaşlıq çərçivəsində koordinasiya və icra edilir. LafargeHolcim bunun müqabilində biznes və ya maliyyə üstünlüyü əldə etmir və belə bir üstünlük qazanacağını gözləmir. |
| *Direktor* | LafargeHolcim Direktorlar Şurası, hər hansı Qrup şirkətinin və ya Qrup daxilində iki pilləli şura sistemini tətbiq edən şirkətlərdə Direktorlar Şurası (icraçı vəzifəsi daşıyan və daşımayan direktorlar) üzvləri və ya Müşahidə Şurasının hər hansı üzvü. |
| *İanələr* | İanələr LafargeHolcim-in əvəzində heç nə almadığı və ya gözləmədiyi, təşkilat və ya institutlara edilən birdəfəlik könüllü yardımlardır. İanələr pul və ya natura formasında (məsələn, materialların təchizatı) ola bilər. |
| *Əməkdaş* | Təcrübəçilər, müvəqqəti işçilər, müqavilə əsasında ştatdankənar işə cəlb edilmiş əməkdaşlar, eləcə də LafargeHolcim –in işini necə yerinə yetirdiyinə nəzarət etməsi məntiq çərçivəsində gözlənə biləcək hər kəs daxil olmaqla, LafargeHolcim-in bütün vəzifəli şəxsləri və əməkdaşları. |

| | |
|---|---|
| *Əyləncə* | Üçüncü tərəfin şou, tamaşa və ya oyun kimi tədbir və ya fəaliyyətlərdə iştirak imkanı ilə təmin edilməsinə şamil edilir.<br>Bunun əyləncə hesab edilməsi üçün imkanı təmin edən şəxs tədbir və ya fəaliyyətdə iştirak etməlidir, əks halda bu, hədiyyə kimi təsnif edilməlidir. |
| *Hədiyyə* | Bax: qonaqpərvərlik və hədiyyənin tərifi |
| *Dövlət müəssisələri* | Universitetlər, xəstəxanalar və kommersiya müəssisələri daxil olmaqla dövlət nəzarəti altında olan hər hansı qurum - (a) səhmlərinin 50%-i və ya daha çoxu dövlətə məxsus olduqda və ya onun tərəfindən idarə olunduqda, yaxud (b) idarəetmə, siyasət və ya işləri hökumət tərəfində istiqamətləndirildiyi halda dövlət nəzarəti altında olan müəssisə hesab edilir. |
| *Yüksək riskə məruz qalan RKM əməkdaşları* | Bütün İcraiyyə Komitəsi üzvləri və N-1 və N-2 vəzifələrini tutan bütün əməkdaşlar (burada N baş icraçı direktoru bildirir). Aşağıdakı şöbələrin rəhbərləri və birbaşa əməkdaşları: Maliyyə, Təchizat, Kapital Xərclər, Ticarət, Normativ -Hüquqi Məsələlərin Tənzimlənməsi/Keyfiyyət, Dövlət Orqanları ilə İş, Geosikl (AFR), İT, Strategiya/ Birləşmə və Udulma, Kommunikasiya, Kommersiya/Satış, İnkişaf və İnnovasiya/Marketinq, Performans və Xərclər, İR, Davamlı İnkişaf, Ətraf Mühit və İstehsalın İdarə Edilməsi. Hüquqi Məsələlər/Uyğunluğa Nəzarət, Daxili Audit və Daxili Nəzarət Şöbələrinin bütün əməkdaşları. |
| *Qonaqpərvərlik və Əyləncə* | Üçüncü tərəfin səyahət, sərnişindaşıma xidməti, yaşayış yeri və ya əyləncə ilə təmin edilməsinə şamil edilir, həmçinin üçüncü tərəflərə təmin edilən əyləncə və ya bənzər rəftar formaları ilə yanaşı və ya onların bir hissəsi kimi təklif olunan yeməklər də bura daxil ola bilər.<br>Bunun qonaqpərvərlik və ya əyləncə hesab edilməsi üçün imkanı təmin edən şəxs tədbir və ya fəaliyyətdə iştirak etməlidir, əks halda bu, hədiyyə kimi təsnif edilməlidir. |
| *LafargeHolcim* | LafargeHolcim Ltd və onun müvafiq dövrdə mövcud filialları. |
| *Lobbiçilər və siyasi məsləhətçilər* | Dövlət rəsmiləri ilə siyasət, qanun, proqram, standart və ya vəzifələrə təsir məqsədi daşıyan birbaşa və ya dolayı əlaqəsi olan fərd və ya şirkət. Siyasətlə əlaqədar və başqa rəsmi fəaliyyətləri yerinə yetirə, yaxud LafargeHolcim-ə bu mövzularda məsləhət xidməti göstərə bilər. |
| *Uyğunluğa nəzarət (komplayens) üzrə yerli məsul şəxs* | Rəsmi olaraq uyğunluğa nəzarət üzrə məsul şəxs təyin edilmiş, müəyyən edilmiş coğrafiyaya görə cavabdeh şəxs. |
| *Orta dərəcədə riskə məruz qalan RKM əməkdaşları* | Yüksək riskə məruz qalan RKM əməkdaşlarından əlavə olaraq, Qrup şirkəti adından dövlət rəsmiləri ilə ünsiyyət, yaxud işgüzar danışıqlarda (kommersiya xarakterli fəaliyyət azadlığı ilə) iştirak potensialı olan bütün əməkdaşlar. |
| *Beynəlxalq ictimai təşkilat* | Üzvlərinin ölkələr, hökumət və başqa ictimai beynəlxalq təşkilatlar olduğu təşkilat. |
| *Dövlət rəsmiləri* | (a) hökumət, onun idarəsi və ya orqanları və ya |

| | |
|---|---|
| | (b) beynəlxalq ictimai təşkilat adından fəaliyyət göstərən hər hansı vəzifəli şəxs, əməkdaş və ya şəxs. Termin həmçinin siyasi partiya rəsmilərini, siyasi vəzifəyə namizədləri və onların ailə üzvlərini əhatə edir. |
| *Qohumlar* | (a) yaxın ailə üzvlərinə, başqa sözlə, həyat yoldaşı, sevgili, valideyn, nənə, baba, uşaqlar, ögey uşaqlar, bacı-qardaş, qaynana, qayınata, qayın və baldıza və (b) yaxın dost, yaxud tərəfdaş kimi başqa yaxın münasibətlərə şamil edilir. |
| *Sponsorluq* | Hər hansı fəaliyyət, mülkiyyət, şəxs, təşkilat və ya əmlakla əlaqələndirilmək hüququ, yaxud nüfuz qazanmaq müqabilində xeyriyyə və ya qeyri-kommersiya təşkilatına edilən pul və ya natura yardımını nəzərdə tutur. |
| *Qeyri-qanuni üstünlük* | Sözügedən şəxsin və ya şirkətin qanuna əsasən birmənalı şəkildə hüququ olmayan bir imkanla, məsələn, qanuni tələblərə cavab verməyən bir fabrikin iş üçün icazə ilə təmin edilməsinə şamil edilir. |